

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

3 APREL 2022-ci il BAZAR | № 67 (7249) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ




## Ordumuzun gücünün, xalqımızın birliyinin, vətənpərvərliyinin göstəricisi

# Aprel döyüşləri tarixi Zəfərə zəmin yaratdı

***"Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri Aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü Ordumuz var. Biz Ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik. Sizə eşq olsun! Azərbaycan inkişaf edəcək və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik". Bu sözləri ölkə başçımız 2016-cı ilin noyabrında Füzuli rayonu ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olarkən demişdir.***

Bəli, Azərbaycan günbəgün, ilbəil inkişaf edərək, bütün sahələrdə, əsasən də ordu quruculuğunda inamlı addımlar atdı. Aparılan məqsədyönlü siyasət nəticəsində silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, ordumuzun döyüş potensialının gücləndirilməsi Böyük Qələbəyə zəmin yaratdı. "Mən hökumətə də bunu demişəm, bütün dövlət qurumları bunu bilir. İlk növbədə, ordumuzun sifarişləri təmin edilməlidir və büdcə xərclərinin tərkibində ən böyük xərclər hərbi xərclərdir" - deyən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuz 30 il işğal altında olan torpaqlarımızı düşməndən geri aldı. Xalqımız hünəri, qətiyyəti ilə Zəfər salnaməmizi yazdı. Zəfərimizin bünövrəsi isə Aprel döyüşlərində qoyuldu.

1988-ci ildə növbəti dəfə Azərbaycanın tarixi torpaqlarında açıq formada ərazi iddialarına və etnik zəmində təxribatlara başlamış Ermənistan xalqımıza qarşı təcavüzkar siyasətindən heç bir vəchlə əl çəkməmiş, davamlı olaraq ərazi bütövlüyümüzü pozaraq torpaqlarımızı işğal etmişdi. Mənfur düşmən ölkəmizə qarşı 30 ilə yaxın işğalçılıq siyasəti aparmışdı. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində Ermənistan silahlı təxribat törətmiş, bütün cəbhə boyu mövqelərimiz və yaşayış məntəqələri düşmən tərəfindən güclü artilleriya atəşinə tutulmuşdu. Hücumların qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul edilmiş, qəhrəman ordumuzun əsgər və zabitləri düşmənin təxribatına layiqli cavab vermişdir.

**(davamı 4-cü səhifədə)**

# Ordumuzun gücünün, xalqımızın birliyinin, vətənpərvərliyinin göstəricisi



## Aprel döyüşləri tarixi Zəfərə zəmin yaratdı

(əvvəli 1-ci səhifədə)

Əks-hücum əməliyyatları nəticəsində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Qazaxlar kəndi, Suqovuşan kəndi istiqamətində yollar, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Goranboy rayonunun Gülüstan kəndi işğaldan azad edilmiş, ümumilikdə 2000 hektardan çox torpaqlarımız uğurlu əks-əməliyyat nəticəsində Azərbaycan Ordusunun nəzarətinə keçmişdir.

Aprelin 4-də Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərindəki mövqelərimizə yenidən hücum etmiş, yaşayış məntəqələrimizi fasiləsiz olaraq atəşə tutmuş, lakin mübariz ordumuzun iradəsi, əzmi qarşısında düşmən geri çəkilməyə məcbur edilmişdi. Azərbaycan Ordusunun bir neçə saat ərzində geri aldığı mövqeləri ermənilər 3 gün fasiləsiz olaraq döyüş əməliyyatları aparsalar da qaytara bilməmiş, hətta beynəlxalq təşkilatlara, ayrı-ayrı ölkələrə döyüşlərin dayandırılması üçün müraciətlər etmişlər. Aprel döyüşlərində silahlı qüvvələrimiz bir gecədə düşmənin mövqelərini darmadağın edərək torpaqlarımızın bir qarışının belə yağı düşmənə pay olmayacağını sübut etmişdi.

Hələ 1994-cü ildə uğurlu Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun bir qəsəbəsi, 20 kəndi, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilmişdi. Lakin düşmənin davamlı olaraq bu əraziləri atəşə tutması səbəbindən Cocuq Mərcanlı kəndi xarabalığa çevrilmiş, infrastrukturu tamamilə dağıdılmışdı. Aprel döyüşlərində Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi nəticəsində ordumuz Cəbrayılın Mehdili, Horadiz və Qazaxlar kəndi istiqamətində hərbi üstünüyünü artıraraq həmin istiqamətdə yaşayış məntəqələrimizin davamlı atəşə məruz qalmasının qarşısını almış, Cocuq Mərcanlı kəndinin təhlükəsizliyini təmin etmişdir. Lələtəpənin azad olunmasından sonra ölkə başçımızın Sərəncamı ilə Cocuq Mərcanlının bərpasına başlanılmış, burada məktəb, bağça, məscid, inzibati binalar, evlər tikilmiş, dağıdılıb sıradan çıxmış yollar bərpa olunmuşdur.

Azərbaycan öz torpaqları uğrunda savaşa məhz elə həmin vaxt - 2 aprel 2016-cı ildə başladı. Böyük qəhrəmanlıqlar göstərən əsgər və zabitlərimiz əlverişsiz mövqelərdə döyüşərək bir neçə kəndi, yüksəklikləri düşməndən azad etdi, Vətəninin bir qarış torpağı, bir parça daşı uğrunda ölümə hazır olduğunu, Azərbaycan Ordusunun yenilməzliyini sübuta yetirdi. Aprel döyüşləri ilə bir daha öz ərazi bütövlüyünü bərpa etmək gücündə olan Azərbaycan heç bir ölkənin torpağında gözü olmadığı kimi, bir qarış torpağından da keçməyəcəyini, torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcəyini nümayiş etdirdi. Xalqımızın Ermənistanın işğalçılıq siyasəti ilə barışmayacağını hər dəfə mötəbər kürsülərdə, beynəlxalq görüşlərdə bəyan edən Prezident İlham Əliyev sülh yolu ilə mümkün olmadığı təqdirdə hərbi yolla torpaqlarına sahib çıxmaq iqtidarında olan Azərbaycanın müasir hərb tarixində Aprel döyüşlərini dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən şanlı qələbə kimi qiymətləndirdi. Həm döyüş meydanında, həm də diplomatik arenada məğlub olan, ideoloji əsasları sarsılan Ermənistan isə gah Aprel döyüşlərində heç bir ərazinin geri verilmədiyini, gah Azərbaycan ordusu tərəfindən işğaldan azad olunan torpaqların əhəmiyyətsiz olduğunu, gah da həmin torpaqları yenidən geri qaytaracaqlarını uydururdu. Lakin müxtəlif ölkələrdən, xarici dairələrdən, beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətdə olan düşmən ölkənin rəhbərliyi havadarlarından dəstək almadıqda heç bir "qəhrəmanlıq" sergiləyə bilmədilər. Onlar bu döyüşlərdə Azərbaycan Ordusunun ən müasir silahlara, texnikaya, düşmənin istənilən strateji və hərbi obyektini məhv etməyə qadir olan hərbi gücə malik olduğunu döyüş meydanında gördülər.

Ordumuzun gücünün, xalqımızın birliyinin, vətənpərvərliyinin, ən əsası isə Azərbaycanın Ermənistan üzərində hərbi üstünlüyünün göstəricisi olan Aprel döyüşləri sübut etdi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi: "Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi birinci yerdə duran prioritet məsələdir".

Aprel döyüşlərində təməli qoyulan 44 günlük Vətən müharibəsində qazanılan Zəfərimiz Azərbaycan Ordusunun həm döyüş qabiliyyəti, vətənpərvərlik ruhu və maddi-texniki təminat baxımından güclü ordular sırasında olduğunu dünyaya nümayiş etdirdi.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**